

B bölümü periodları isə bütövlükdə 3-cü və 4-cü beytlərin əsasındadır. Burada əsasın şüştər intonasiyaları eşidilir. Bu intonasiyalar si şüştər məqamının səssırasına uyğun gəlir. Lakin burada si şüştər məqamının tərkib pərdisinə sual və cavab cümlələrinin əvvəlində sinkopa zərbələrində rast gəlinir. Bəstəkar burada B bölümünün fermatosunda si şüştər məqamının tam kadans pərdəsini bir oktava yuxarı istifadə etməklə əsərin kulminasiyasını yaradır.





Bəstəkar A_1 bölümünə keçidi si şüştərin tam kadans pərdəsinə enməklə təzahür etdirir. Burada tam kadans pərdəsi fa diyez pərdəsinə enməklə eyni zamanda fa diyez şur məqamının mayə pərdəsinə giriş edir. Bu bölüm qəzəlin 5-ci beyti əsasındadır. Əsərin bu bölümü şur intonasiyaları ilə sona çatır.

Ə.Hüseynzadə yaradıcılığından uzaqlaşmadan uzun illər Bülbül adına orta ixtisas musiqi məktəbində qabiliyyətli uşaqlara kompozisiyanın əsaslarını tədris etmişdir. Onun tələbələri Sevda İbrahimova, Firəngiz Əlizadə, Elnarə Dadaşova, Zümrüd Dadaşzadə və digərlərinin adlarını qeyd etmək olar.

ƏDƏBİYYAT

1. Hacıbəyov Ü. Azərbaycan xalq musiqisinin əsasları. 1985, 145 s.
2. Gəncəvi N. Lirika, B., Lider nəşriyyat, 2004, 160 s.
3. Николаева Р. Аделя Гусейнзаде, Баку, Ишык, 1985, 47с.

Məqalənin redaksiyaya daxil olma tarixi: 14.10.2016
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.11.2016
Məqalənin çapa qəbul olunma tarixi: 15.03.2017
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə elmlər doktoru, professor Nərminə Quliyeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.

UOT 78.071 (479.24)

Telman Qəniyev
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Milli Konservatoriyası
AZ5001, Sumqayıt şəhəri, Z.Haclyev küç.1
e-mail: qeniyev.telman@gmail.com

MUĞAM İFAÇILIĞINDA ƏDƏBİ-BƏDİİ TƏSVİR VƏ İFADƏ VASİTƏLƏRİ

Açar sözlər: *muğam, ədəbi-bədii dil, xanəndə, vokal-instrumental*

Xülasə: Məqalə instrumental muğam ifaçılığında və xanəndəlik sənətində ədəbi-bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə, muğam dəstgahlarının mövzu zənginliyinə nail olmağın mümkünlüyünə həsr edilmişdir.

Тельман Ганиев

ЛИТЕРАТУРНО-ХУДОЖЕСТВЕННОЕ ПРЕДСТАВЛЕНИЕ И СРЕДСТВА ВЫРАЗИТЕЛЬНОСТИ В МУГАМНОМ ИСПОЛНИТЕЛЬСТВЕ

Ключевые слова: *музыка, литературный язык, певец, вокально-инструментальный*

Данная статья посвящена теме о возможности достижения тематического богатства мугам-дястгахов в мугамо-инструментальном и певческом искусстве, где используется искусство литературного выражения и описания.

Telman Ganiyev

LITERARY AND ARTISTIC MEANS OF DESCRIPTION AND EXPRESSION IN MUGAM PERFORMANCE

Key words: *music, literary language, singer, vocal-instrumental*

The article was dedicated to the possibility of achieving themes wealth of mugham destgahs using fiction-literary and expression tools in instrumental mugham performing and singing.

Muğam sənəti dünyəvi və qədim bir sənət növü olub Şərq musiqisi sahəsində daima ən əhəmiyyətli və aparıcı rola malik olmuşdur. Şərq xalqlarının muğam sənəti sahəsində öz yerini tutan Azərbaycan muğam sənəti də öz əhəmiyyəti ilə seçilmiş, ifaçılıq ənənələri ilə dövrümüzə qədər gəlib çatmışdır. Dövlətimiz tərəfindən muğama verilən qiymət və mütəmadi olaraq keçirilən muğam festifalları bu sənət növünün, bu janrın müxtəlif xanəndə və instrumental ifaçıların yetişməsində də mühüm rol oynadığını labud olaraq göz önünə gətirir.

Təbii olaraq muğam sənətində təsvir və ifadə vasitələri söz və musiqinin vəhdəti zəminində meydana gəlir. Lakin, bədii təsvir və ifadə vasitələri dedikdə isə biz mədəniyyət, incəsənət və ədəbiyyat sahəsində yaranan müxtəlif tipli əsərlərin insan cəmiyyətinə təsiri, onların bədii estetik tərbiyəsinin formalaşmasında yaranan müxtəlif janrlı əsərlərin təsir üsullarını nəzərdən qaçırmamalıyıq. Bədii əsərlərin yaradılmasında yazıçı və şairlər söz və ifadə vsitələrindən, rəssamlar palitra və rənglərdən, bəstəkarlar, söz və səslərdən istifadə edirlər. Lakin bu cəhətlər instrumental muğam ifaçılığında xanəndələrin dilindən oxunan muğamların şöbə və guşələrində daha çox nəzərə çarpmaqdadır.

Zaman-zaman musiqi və sözün vəhdəti xanəndədən ədəbi-bədii dilin qayda-qanunlarına riayət etməyi, ona dərindən bələd olmağı, qramatik qaydalara yiyələnməyi tələb etmişdir. Bununla bağlı bədii dilin təsirli və nüfuzedici olması, poetik mətnlərin, sözlərin yerli-yerində işəldilməsi, cümlələrin mənalı və məntiqli qurulması, şairanə nitq mədəniyyəti xüsusiyyətlərinin umumiləşdirilməsi üçün bədii təsvir və ifadə vasitələrinin düzgün yerinə yetirilməsi vacib şərt kimi qarşıya qoyulmuşdur. Muğam tədris və təlim üsullarının öyrənilməsi və ifa prinsiplərinin tələbləri, xanəndə və muğənnilərin sənət aləmində yetişmələri və yaddaqalan yaradıcılığa malik olması üçün mühüm əhəmiyyət daşmışdır.

Muğam intonasiyalarının hər bir muğama adi olan şöbə və güşələrin düzgün ifa elementləri ilə yerinə yetirilməsi üçün əsas vasitələrdən və vacib cəhətlərdən biri də mətn xüsusiyyətlərinin tətbiqi ilə bağlıdır. Bu cəhət ədəbi-bədii dil, obrazlı poetik dildir. İfa zamanı bədii obrazlılıq o halda yaranır ki, ifaçı səsi və sözü, tələffüzü ilə yaratmaq istədiyi obrazın surətini təsvir etmış olsun. Bu zaman ədəbi dilin sadəliyinə, tələffüzün aydınlığına diqqət vermək vacib şərtlərdəndir. Bu halda məşhur rus yazıçısı Lev hikolayeviç Tolstoyun "Sadəlik mənəvi gözəlliyin əsas şərtidir" sözlərinin yada salmaq yerinə düşərdi. Əsil sadə dil isə poetik dilə əsaslanan xalq dilidir. Xalq dilindən, xalq yaradıcılığından bəhrələnən istər şair, istər yazıçı, istərsə də musiqiçi-xanəndə həmişə xalqın yaddaşında və qəlbində özünəməxsus yer tutur.

Muğam sənətində mövcud olam motiv, submotiv, ibarə və cümlə quruluşlarına nəzər salsaq, o zaman biz melodik gedişatın və bədii intonasiya ardıcıllaşmalarının məhz poetik mətnin tətbiqindən daha çox asıllığının labud olaraq görə bilərik.

Qədim dövrlərdən başlayaraq dövrümüzə qədər yaranaraq inkişaf edən musiqi sənətinin hər bir növünün bədii ədəbiyyatla üzvü surətdə bağlılığı məsləsi dünyəvilik kəsb edərək hər bir xalqın həyatında əhəmiyyət daşımışdır. Bu cəhət isə əsasən Azərbaycan muğam sənətində vokal-instrumental şəkildə ifa edilir. Bu zaman klassik Azərbaycan ədəbiyyatında həm xalqın dilindən söylənilən bayatı, qoşma və müxtəlif Azərbaycan şairlərinin şer, qəzəl və diğər janrlarda yazılmış poetik əsərlərindən geniş istifadə edilərək həyata keçirilir.

Muğam şöbə və güşələrində hər bir melodik cümlənin genişlənməsi məsələsi də əsas amil kimi göz önünə gəlir. Praktiki surətdə apardığımız araşdırmalarımızda hər bir muğam şöbəsində əsasən 1, 2 və ya 3 prirodun iştirak etməsi də diqqət çəkir. Çox zaman burada sual cümlələrinin daha çox olması periodun genişlənməsinə səbəb olur. Bu cəhət məhz poetik mətnin tələbindən daha çox aslı olur.

Məhz bu cəhətlər Azərbaycan vokal-instrumental muğam ifaçılığı sənətində də öz təzahürünü tapmışdır. Elə buna görə də muğam ifaçılıq sənətində söz və musiqinin vəhdəti öz əhəmiyyəti baxımından diqqət çəkir. Söz və musiqinin vəhdəti poetik qanunauyğunluqların muğam intonasiyaları ilə müqayisələnməsi şərtlərini də meydana gətirir. Bu baxımdan aşağıdakı müqayisələnmələrə nəzər salaq:

Muğamların ifası zamanı təcrübəli sənətkarlar poetik mətnin, qəzəlin, musiqi cümləsinin və instrumental ifadənin məntiqli alınması üçün ədəbi-bədii təsvir və ifadə vastələrindən məharətlə istifadə edirlər. Bu vasitlərdən "Ricət," və "Rücu" , "Təkrir"i nəzərdən keçirək.

"Ricət" və "Rücu" – hər iki söz eyni mənşəli söz olub, luğəvi mənası "qayıtmaq, geri dönmə" deməkdir. Bədii ədəbiyyatda bunu bir ifadəni və ya fikri daha da qüvvətləndirmək üçün ondan əl çəkmək, yaxud dönmək, onu daha təsirli və qüvvətli şəkildə ifadə etməyə deyilir[1].

Məsələn: Abbas Səhətin "Sabir" şerindən bir bəndə nəzər yetirək:

Necə qan olmasın sınıq könlüm?
Səni cox tez ayırdı bizdən ölüm.
Yox, yox əsla sən ölmədin, dirisən,
Ən böyük qəhramanlardan birisən

Birinci beytdə şairin ölümündən bəhs edildiyi halda, ikinci beytdə bu fikir "inkar" edilərək təsdiq olunur ki, o, ölməmişdir.